AZƏRBAYCAN RESPUBLİKASI
DÖVLƏT ŞƏHƏRSALMA VƏ ARXİTEKTURA KOMİTƏSİNİN
KOLLEGİYASI
QƏRAR

№ 04

Bakı şəhəri "13" avqust 2015-ci il

"Su təchizatı. Xarici şəbəkə və qurğular" və "Kanalizasiya. Xarici şəbəkə və qurğular"ın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 5.1.9-cu maddəsinin icrasını təmin etmək məqsədilə "Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi haqqında Əsasnamə"nin 17-ci bəndini rəhbər tutaraq Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kollegiyası qərara alır:

1. Aşağıda qeyd olunan texniki normativ hüquqi aktlar təsdiq edilsin:
1.1 "Su təchizatı. Xarici şəbəkə və qurğular" (əlavə olunur);
1.2 "Kanalizasiya. Xarici şəbəkə və qurğular" (əlavə olunur).

2. Ümumi şöbəyə (S. Məmmədov) və Hüquq sektoruna (N.Mehtiyev) tapşırılsın ki, bu qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş texniki normativ hüquqi aktların Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün 3 (üç) gün müddətində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə göndərilməsini təmin etsin.

3. Bu qərarla təsdiq olunmuş texniki normativ hüquqi aktlar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

4. Qərarın 1.1-ci hissəsi ilə təsdiq edilən texniki normativ hüquqi aktlar qüvvəyə mindiyi tarixdən SSRİ Dövlət Tikinti Komitəsinin 1984-cü il 27 iyul tarixli 123 nömrəli qərarı ilə təsdiq edilmiş СНиП 2.04.02-84"Водоснабжение. Наружные сети сооружения" və SSRİ Dövlət Tikinti Komitəsinin 1985-ci il 21 may tarixli 71 nömrəli qərarı ilə təsdiq edilmiş СНиП 2.04.02-84 "Канализация. Наружные сети сооружения" normativ sənədlərinin Azərbaycan Respublikası ərazisində hüquqi qüvvəsi dayandırılsın.

5. Qərarın icrasına nəzarət Aparatın rəhbəri E. Hüseynzadəyə həvalə edilsin.

Kollegiyanın sədri Abbas Ələsgərov

Kollegiyanın katibi Oqtay Salamov